# Rayon icra hakimiyyəti başçısının səyyar görüş-qəbulları keçirilib

## Zalam kəndi

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Zalam kəndində vətəndaşlarla səyyar görüş-qəbulu keçirilib. Yığıncaqda rayonun hüquqmühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatlarının rəhbərləri, kənd ictimaiyyətinin nümayəndələri və ağsaqqallar iştirak edib.***



Tədbirdə icra nümayəndəsi Soltan Ramazanov çıxış edərək kənddə görülmüş işlər barədə məlumat verib. O, kəndin fasiləsiz olaraq elektrik enerjisi, qaz, rabitə, içməli su və s. təmin olunduğunu qed edərək, ərazidə aparılan abadlıq və quruculuq işlərinə görə kənd sakinləri adından ölkə Prezidenti cənab İlham Əliyevə öz dərin minnətdarlıqlarını bildirib.

Görüş-qəbulda kənd sakinlərindən Nazimə Ağayeva, Azad Əbdürəhimov və digərləri çıxış edərək ölkə Prezidenti cənab İlham Əliyevin rayonumuza göstərdiyi diqqət və qayğını yüksək qiymətləndirib, görülən işlərə görə ona öz dərin minnətdarlıqlarını bildiriblər.

Rayon İcra hakimiyyətinin başçısı Səbuhi Abdullayev səmimi görüş üçün kənd sakinlərinə minnətdarlığını bildirib və respublikamızın bu günkü uğurlu inkişafından danışıb. RİH başçısı qeyd edib ki, ölkədə həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün respublikanın hər bir bölgəsində, o cümlədən rayonumuzda geniş tikinti-abadlıq işləri aparılır, yeni yollar çəkilir, təhsil, səhiyyə müəssisələri inşa olunur, uşaq bağçaları tikilir, sosial layihələr həyata keçirilir. Ölkə başçısı tərəfindən özəl sahəyə xüsusi diqqət yetirilir,



yeni-yeni istehsal və emal müəssisələri yaradılır. Görülən bütün bu işlər, həyata keçirilən tədbirlər sonda yalnız bir amala xidmət edir ki, bu da əhalimizin yaxşı yaşaması, insanlarımızın fəaliyyəti üçün iş yerlərinin yaradılması, onların sosial rifahının və həyat səviyyəsinin daha da yaxşılaşdırılmasıdır.

Səbuhi Abdullayev son illər Zalam kəndində də quruculuq işlərinin aparıldığını qeyd edərək bildirib ki, digər kəndlərimiz kimi Zalam kəndinə də qaz xətti çəkilib, elektrik və su təsərrüfatında yenidənqurma işləri aparılıb. Bu il yaşayış məntəqəsinin mərkəzindən keçən və 10 kəndi birləşdirən asfalt yolun əsaslı təmir edilməsi, kəndarası yolların qumçınqılla hamarlanması, suvarma kollektorunun qaydaya salınması ilə bağlı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Çıxışında Səbuhi Abdullayev qeyd edib ki, ölkəmizin elə bir bölgəsi yoxdur ki, orada əhalinin güzəranının yaxşılaşmasına xidmət edən mühüm layihələr həyata keçirilməsin. Bunun nəticəsidir ki, bizim şəhərimizdə, qəsəbə və kəndlərimizdə də belə uğurlu nəticələr özünü göstərir.

Görüş zamanı Səbuhi Abdullayev Zalam kənd əhalisinin problemlərini dinləyib və qaldırılan məsələlərin həlli istiqamətində aidiyyəti təşkilatlara tövsiyə və tapşırıqlarını verib.

## Böyük Pirəli kəndi

***Aprelin 20-də Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Böyük Pirəli kənd sakinləri ilə növbəti səyyar görüşü keçirilib.***

***Görüşdə rayonun hüquq mühafizə orqanlarının, idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri, ərazi icra nümayəndəsi, bələdiyyə sədri və kənd sakinləri iştirak ediblər.***

Görüş-qəbulda rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ölkədə sosial-iqtisadi sahədə əldə edilmiş nailiyyətlər barədə geniş məlumat verib.

Daha sonra RİH başçısı Qəbələ rayonunda aparılan tikinti, abadlıq və quruculuq işlərindən, sosial-iqtisadi sahədəki inkişafdan, əhalini narahat edən problemlərin həlli istiqamətində həyata keçirilən tədbirlərdən, infrastrukturun yaxşılaşdırılması ilə bağlı görülən işlərdən danışıb.





Səyyar görüşdə iştirak edən sakinlər rayonda, o cümlədən Böyük Pirəli kəndində görülən işlərə görə ölkə başçısına öz razılıqlarını ifadə edib, əhalinin problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə, göstərilən diqqət və qayğıya görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Tədbirdə çıxış edən kənd sakinləri yaşayış məntəqəsində mövcud olan bəzi problemlərdən söz açıb, bir sıra təkliflər irəli sürüblər.

Səbuhi Abdullayev vətəndaşlar tərəfindən qaldırılan məsələlərin həlli üçün aidiyyəti qurumların rəhbərlərinə müvafiq tapşırıqlar verib və icrasını nəzarətə götürüb.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto)**
**"Qəbələ"**

# Çağırışçılar hərbi xidmətə yola salınıb

Aprelin 13-də bir qrup çağırışçı gəncin Heydər Əliyev parkında təntənəli surətdə hərbi xidmətə yola salınıb.



Əvvəlcə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin əməkdaşları və çağırışçılar ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, dahi şəxsiyyətə ehtiramlarını bildiriblər.

Daha sonra rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanovanın, hüquq-mühafizə orqanları rəhbərlərinin, ziyalıların, ağsaqqalların və valideynlərin iştirak etdikləri tədbirdə Azərbaycanın Dövlət Himni səsləndirilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsinin rəisi, polkovnik İlqar Əliyev tədbiri açaraq Azərbaycan ordusunun keçdiyi tarixi yoldan, torpaqlarımızın 20 faizinin işğal altında olduğu bir vaxtda hər bir zabitin, hər bir əsgərin üzərinə düşən mühüm vəzifədən danışıb.

Şəhid anası Şəhla Şirinova, Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin üzvü, Qarabağ müharibəsi veteranı Rövşən Kazımov və başqaları çıxış edərək əsgəri xidmətə yola düşən çağırışçılara xeyir-dualarını verib, onlara öz məsləhət və tövsiyələrini bildiriblər.

Yolasalma mərasimində rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova çıxış edərək müasir, müstəqil Azərbaycan ordusunun qüdrətindən,



Aprel döyüşlərində erməni qəsbkarlarına qarşı göstərdiyi şücaətdən danışıb, bu gün ordu sıralarında xidmətin müqəddəs və şərəfli borc olduğunu söyləyib.

Rayonun incəsənət ustalarının rəngarəng konsert proqramı ilə müşayət olunan mərasimin sonunda çağırışçı gənclər marş sədaları altında üç rəngli bayrağımızı öpərək hərbi xidmətə yola düşüblər.

**Qüdrət SƏMƏDOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**